# Gözlərə nur bəxş etdi...





***Görkəmli oftalmoloq-alim, ictimai-siyasi xadim, akademik Zərifə Əliyevanın anadan olmasının 102-ci ildönümü münasibətilə tədbir keçirilib.***

"Şəki Rayon Mərkəzi Xəstəxanası" PHŞ-nin akt zalında keçirilən tədbirdə şəhər icra hakimiyyətinin, Yeni Azərbaycan Partiyası rayon təşkilatının və "Şəki Rayon Mərkəzi Xəstəxanası" PHŞ-nin rəhbər şəxsləri, ziyalılar, səhiyyə işçiləri və YAP fəalları iştirak ediblər.

Əvvəlcə ulu öndər Heydər Əliyevin, akademik Zərifə xanım Əliyevanın və ərazi bütövlüyümüz, suverenliyimiz uğrunda qəhrəmancasına həyatlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə "Şəki Rayon Mərkəzi Xəstəxanası" PHŞ-nin həkim-oftalmoloqu Samirə Balabəyova akademik Zərifə Əliyevanın həyat və fəaliyyəti haqqında məruzə ilə çıxış edib.

YAP Şəki rayon təşkilatının sədri Daşqın Mikayılov, Şəki Şəhər İcra Hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Xəyalə Töhrablı çıxış edərək görkəmli oftalmoloq-alim Zərifə Əliyevanın zəngin elmi irsindən və fəaliyyətinin müxtəlif dövrlərindən bəhs ediblər.

Bildirilib ki, Zərifə xanım Əliyevanın çoxcəhətli tibbi fəaliyyəti və elmi irsi təkcə öz dövrü üçün deyil, bu gün üçün də mühüm əhəmiyyət kəsb edir.

İnsanların gözlərinə nur bəxş etmiş akademik Zərifə Əliyeva elmi fəaliyyəti, həyat yoldaşı və ana missiyası ilə hər bir Azərbaycan qadınına nümunədir.

Tədbirin sonunda oftalmoloq-alim Zərifə Əliyevanın həyat və fəaliyyətinə həsr olunan videoçarx nümayiş etdirilib.

**M.NƏRİMANOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 1 may (№87).- S.6.